# Heydər Əliyev Fondunun Gəncə nümunəsi

**(əvvəli qəzetin ötən sayında)**

Xalqın maddi-mənəvi dəyərlərini toplayan, qoruyan və təbliğ edən muzeylərin mədəniyyət ocağı olduğunu nəzərə alaraq Heydər Əliyev Fondunun dəstəyi ilə qısa müddət ərzində Gəncə şəhərinin tarixini, görkəmli mütəfəkkirlərini, incəsənət əsərlərini qoruyub saxlayan, arxeoloji və etnoqrafik eksponatlarla zəngin yeddi muzey inşa olunmuşdur.



Muzeylərimizin inşası, bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının və Birinci vitse-prezidentin qayğısı sayəsində Gəncədə muzeylər, tarixi abidələr intibah dövrünü yaşamağa başlamış, mədəni irsimizin bərpası və mühafizəsi rolunu həyata keçirmişdir. Təsadüfi deyil ki, Gəncə artıq muzeylər şəhərinə çevrilmişdir.

Gəncə şəhərinin müqəddəs tarixi abidələrindən biri də İmamzadə ziyarətgahıdır. Burada beşinci imam Məhəmməd Baqirin (ə.) oğlu İbrahim dəfn olunmuşdur. VIII əsrə aid tarixi memarlıq abidəsi olan və xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan İmamzadə kompleksi Gəncənin qədimliyini sübut etməklə yanaşı, həm də şəhərin İslam aləmindəki yerinin və nüfuzunun göstəricisidir.

Təmir-bərpa işlərinin gedişi ilə bağlı Prezident İlham Əliyev və dini dəyərlərimizin qorunmasında əvəzsiz xidmətlər göstərən Mehriban xanım Əliyeva bir neçə dəfə ziyarətgahda olmuş, tapşırıq və tövsiyələrini vermiş, Şahzadə İbrahimin məzarı üzərində türbə saxlanılmaqla ətrafında yaraşıqlı minarələr inşa edilmişdir. Ziyarətgahda möminlərin ibadəti üçün Hüseyniyyə və Zeynəbiyyə məscidləri, qədim dini kitablardan ibarət muzey tikilib. İnsanların mənəvi saflıq, doğruluq və halallıq ünvanı olan İmamzadə ibadətgahı mömin müsəlmanların ən çox ziyarət etdiyi məkanlardan biridir.

Şərq poeziyasının Günəşi olan Nizami Gəncəvinin məzarı dünyanın müxtəlif ölkələrindən gəlmiş alim və mütəfəkkirlərin əziz ziyarətgahına çevrilmişdir. Araşdırmalar göstərir ki, Gəncə ilə eyni zamanda, Azərbaycanımızı şərəfləndirən bu abidənin bir neçə dəfə zahiri görkəmi dəyişdirilmişdir. Belə ki, onun məzarı üzərində ucalan və şairə el məhəbbətinin ifadəsi olan ilk türbə ağ əhəng daşından XIII-XIV əsrlərdə tikilmiş, Gəncə xanlığının süqutundan sonra türbə bərbad hala düşmüşdür. Dahi şairin məqbərəsi əsrlər boyu görkəmli şəxsiyyətlər tərəfindən bərpa olunmuşdur. Sonuncu dəfə Ulu öndərin sərəncamı ilə yenidən bərpa olunan məqbərənin ön hissəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 dekabr 2011-ci il tarixli "Dahi Azərbaycan şairi və mütəffəkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" sərəncamına müvafiq olaraq Heydər Əliyev Fondunun dəstəyi ilə Nizami Gəncəvi Muzeyi yaradılmışdır.

Muzeydə dahi mütəfəkkirin həyat və yaradıcılığı haqqında geniş məlumatlarla yanaşı, Ulu öndərin və Prezident İlham Əliyevin Nizami Gəncəvinin yubileylərinin keçirilməsi, məqbərəsinin bərpa edilməsi, əsərlərinin tərcümə və tədqiq olunması ilə bağlı sərəncam və qərarları sərgilənir. Burada dahi şairin 800, 840 illik yubileyləri münasibətilə nəşr olunan kitab və monoqrafiyalar nümayiş etdirilir. Şairin 870 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən nəşr olunan "Xəmsə" və monoqrafiyalar Avstriya, Rusiya, Almaniya, Böyük Britaniya milli kitabxanalarında, Misirin İsgəndəriyyə kitabxanası, Fransanın Strasburq kitabxanası və ABŞ-ın Metropol Muzeyində qorunan nadir "Xəmsə" əlyazmalarının və miniatürlərinin orijinalları və nüsxələrindən ibarət guşə yaradılmışdır.

Nizami irsinin aktuallığı nəzərə alınaraq hazırkı mərhələdə respublikamızda gənc nizamişünas kadrların yetişdirilməsi, şairin əsərlərinin tərcüməsinin təkmilləşdirilərək yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə olunması, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması Azərbaycan mədəniyyətinin öyrənilməsi işində mühüm əhəmiyyət daşıyır. Nizami dövrü, ədəbi irsi və məktəbi məsələləri müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiqini gözləyir. Bütün bunlara nəzərən Heydər Əliyev Fondunun Gəncədə inşa etdirdiyi bu muzeyin əhəmiyyəti olduqca böyükdür.

Şərqin elm və mədəniyyət mərkəzi olan Gəncə torpağında Məhsəti Gəncəvi, Rəziyyə Gəncəvi, Siti Gəncəvi, Doxtəre Xətibe Gəncə, Doxtəre Həkim Gav, Doxtəre Salar kimi qadın şairələrimiz X-XII əsrlərdə yaşayıb-yaratmışlar.

Azərbaycanın ilk məşhur şairəsi, ilk şahmatçı qadın və musiqiçi Məhsəti Gəncəvinin yaradıcılığı xalqımızın zəngin milli-mənəvi dünyasının parlaq ifadəsidir.

Prezident İlham Əliyevin Məhsəti Gəncəvi yaradıcılığının 900 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncama əsasən Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncə şəhərində şairin həyat və yaradıcılığını təbliğ edən zəngin mərkəz inşa olunub.





Mərkəzdə Məhsəti Gəncəvinin həyat və yaradıcılığı, ədəbi irsi haqqında kitablar, Azərbaycan, rus və ingilis dillərində elektron formatda şairin rübailəri, bununla yanaşı Azərbaycanın görkəmli şair və mütəfəkkirləri, Azərbaycan musiqisi və xalçaçılığına aid nəşrlər təqdim olunur. Mərkəzin milli geyimlər sərgisində Məhsəti dövrü, xüsusilə İntibah dönəminin xanımlarına xas milli geyim və qədim musiqi alətləri nümayiş etdirilir. Rəsm qalereyasında Məhsəti Gəncəvi obrazı və rübailərinə həsr edilmiş müxtəlif tablolar, sənət nümunələri, monumental əsərlər nümayiş etdirilir.

Heydər Əliyev Fondu tərəfindən Məhsəti Gəncəviyə doğma şəhərində belə bir mərkəzin yaradılması Avropada qadın fəlsəfəsi mövcud olmayan bir vaxtda bu işıqlı əməllər sahibi olan şairəyə ümumxalq sevgisinin dəyərinin göstəricisidir.

Qədim tariximizi, mədəniyyətimizi dünya xalqlarına təbliğ edən bu muzeylərin dəyəri əvəzsizdir. Mehriban xanımın təşəbbüsü və köməyi ilə Gəncədə belə mədəniyyət obyektlərinin inşa olunması, onların qiymətli arxeoloji və etnoqrafik materiallarla təmin edilməsi sonsuz təqdirəlayiq hadisədir. Bu muzeylər sırasında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və tanınmış maarifçi, Şərq mədəniyyətini Avropaya sirayət edən Mirzə Şəfi Vazehin adını daşıyan muzey də var.

Muzeydə mütəfəkkir şairin həyat və yaradıcılığına, həmçinin qəzəllərinə, müxəmməslərinə, məsnəvilərinə və rübailərinə həsr olunmuş müxtəlif tablolar və sənədlər toplanıb. Burada Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsinin gücləndirilməsi haqqında ulu öndər Heydər Əliyev tərəfindən 1981-ci il iyunun 8-də imzalanmış qərar və Prezident İlham Əliyevin "Mirzə Şəfi Vazehin 220 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il 3 fevral tarixli sərəncamı da nümayiş olunur. Muzeydə şairin yaradıcılığında xüsusi yer tutan "Divani-Hikmət" ədəbi məclisinə aid xüsusi guşə yaradılıb. Qeyd edək ki, bu ədəbi fəlsəfi məclisin üzvləri arasında Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Molla Abdulla, Mirzə Mehdi Naci, Mirzə Yusif Vidadi, maarifçilərdən Eristavi, Çavçavadze, Qriqoriyev ilə yanaşı, alman şərqşünasları Bodenştedt, Adolf Berje və başqaları da var idi.

Azərbaycan mədəniyyəti və incəsənətinin təbliğinə xüsusi önəm verən Heydər Əliyev Fondu da Mirzə Şəfi Vazehlə bağlı 2007-2015-ci illər ərzində müxtəlif kitablar nəşr etdirib. Mirzə Şəfi Vazehin Almaniyada 1850-ci ildən 1924-cü illərə qədərki dövrdə nəşr olunmuş kitabları Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 2014-cü ildə Azərbaycana gətirilmiş və muzeydə sərgilənir.



1981-ci ildə heykəltəraş Görüş Babayevin hazırladığı tunc abidə də muzeyətrafı parka köçürülüb. Heykəlin arxasındakı divara mozaika işləmələrlə Mirzə Şəfi Vazehin və onun müasirləri olan Fridrix Bodenştedtin, Abbasqulu ağa Bakıxanovun, Qasım bəy Zakirin, Mirzə Fətəli Axundzadənin, eləcə də bir sıra tarixi şəxsiyyətlərin süjetli təsvirləri həkk olunub.

Heydər Əliyev Fondunun ən önəmli layihələrindən biri ölkəmizin qədim tarixinin araşdırılması və əldə olunan materialların dünyada təbliğ olunmasıdır.

Dəmirçi Osmanoğlu İbrahim tərəfindən 1063-cü ildə hazırlanmış və 1139-cu ildə Gəncədə zəlzələ baş verərkən yadellilər tərəfindən aparılmış məşhur Gəncə qapıları 2008-ci ildə Heydər Əliyev Fondu tərəfindən ilkin şəkildə bərpa edilmiş və şəhərin girişində yerləşdirilmişdir. Bunun əsasında 2012-2014-cü illərdə qırmızı kərpicdən Gəncə Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi inşa olunmuşdur. Zamanında "Məqbərə qapısı" adlanan bu metalişləmə nümunəsi Gəncə-Bakı magistral yolunun hər iki tərəfində inşa edilən və ümumi uzunluğu 50 metrə, bürclərinin hündürlüyü 22 metrə çatan qala divarı fraqmentinin tərkib hissəsi olmaqla, əsas hissəsi beş, baş sütun hissəsi isə yeddimərtəbəli bina hündürlüyündədir. Qapıdan bir qədər aralıda ön hissədə 75 metr hündürlüyündə Dövlət bayrağı ucaldılmış, kompleksin sağ hissəsində isə Gəncənin gerbi yerləşdirilmişdir. Uzunluğu 62 metr olan yeraltı tunel hər iki qalanı birləşdirir. Burada, həmçinin Gəncənin hərb tarixi və etnoqrafik muzeyləri yaradılıb. Bakıdan gələn yolun sağ cinahında xronoloji ardıcıllıqla İran – Turan müharibəsinin əks olunduğu pannolarda türk sərkərdəsi Əfrasiyabın fars hökmdarı Keyxosrovu məğlub etməsi və romalıların Gəncəyə hücumu, usta Bəndərin rəhbərliyi ilə gəncəlilərin xarəzmlərə, Cavad xanın isə ruslara qarşı mübarizə səhnələri, sol cinahda isə Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Gəncəyə gəlişi, 1920-ci ilin mayında bolşevizmə qarşı tarixi Gəncə üsyanı və nəhayət, Heydər Əliyevin Gəncədə vətəndaş müharibəsinin qarşısını alması əks olunmuşdur. Qalanın sağ hissəsindəki papiruslardan birində Gəncənin Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxt şəhəri olması, digərində isə Milli Qurtuluş hərəkatının Gəncədən başlaması göstərilmişdir.

Gəncənin tarixini, arxeologiyasını və etnoqrafiyasını əks etdirən məkan kimi çıxış edən Qala qapıları Arxeologiya və Etnoqrafiya Muzeyi Nizami – Cavad xan yurduna üz tutan yerli və xarici qonaqların böyük maraq və həvəslə tamaşa etdikləri qədim abidədir.

Azərbaycanın, xüsusilə də Gəncənin mədəniyyəti, tarixi və ədəbiyyatının tanıdılması məqsədilə şəhərin səfalı təbiəti və əlverişli turizm imkanları ilə seçilən Hacıkənd qəsəbəsində "Sələflər və xələflər" parkı yaradılmışdır. Parkda Nizami Gəncəvi başda olmaqla Gəncə mühitinin yetişdirdiyi şair, yazıçı və öz dövründə hünər sahibi olmuş, əlinin əməyi, biləyinin gücü ilə fərqlənmiş şəxslərin heykəlləri ucaldılıb. Burada ümumilikdə on yeddi abidə var ki, onların arasında Məhsəti Gəncəvi, Mirzə Şəfi Vazeh, Əbül-Üla Gəncəvi, Qivami Gəncəvi, Usta Bəndər, Şeyx Zaman, Doktəri Xətibi Gəncəvi, Əfrasiyab və Ömər Gənci kimi tarixi şəxsiyyətlərin adları diqqət çəkir. Abidələrin müəllifi heykəltəraş Asəf Həsənovdur.

Bu gün qədirbilən gəncəlilər Mehriban xanım Əliyevanı xalqımızın milli-mənəvi dəyərlərimizin hamisi kimi qəbul edir və bənzərsiz incəsənətimizin dünyada təbliğ olunmasında gördüyü möhtəşəm işlərə görə ona uğurlar diləyirlər.

2012-2017-ci illərdə Prezident İlham Əliyevin tapşırığına əsasən Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncə Dövlət Filarmoniyası inşa olumuşdur. Mehriban xanım şəhərimizdə olarkən filarmoniyada gedən tikinti işləri ilə yaxından tanış olmuş, təkliflərini vermiş və kömək göstərmişdir.

2014-cü ildə Gəncə Dövlət Dram Teatrının yeni binasının təməli qoyulmuş, Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilmişdir. Burada Gəncə Teatr Muzeyi, zəngin kitabxana, xoreoqrafiya zalı, qrim otaqları, mehmanxana, kafe və digər zəruri infrastruktur yaradılıb.

Təbii ki, bütün bu muzeylər və tarixi abidələr Gəncə şəhərinin qədim və zəngin tarixindən, elm və mədəniyyətindən xəbər verir və bütün bunların insanlara çatdırılmasında Heydər Əliyev Fondu böyük zəhmət sərf etmişdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva şəxsiyyəti, ictimai-siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına nümunədir. O, müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi naminə geniş fəaliyyət göstərir.

Gəncə şəhərindəki xeyirxah və şərəfli fəaliyyətinə görə Mehriban xanım Əliyeva gəncəlilərin məhəbbətini, ehtiram və sevgisini qazanmışdır. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan qadınlarının lideri Mehriban xanım Əliyevanı doğum günü münasibətilə təbrik edir, ona və ailə üzvlərinə cansağlığı, xeyirxah fəaliyyətində, məsuliyyətli və nəcib missiyanın yerinə yetirilməsində böyük uğurlar arzulayırıq.

Fuad Əliyev akad.

Sara Əzizova

**Bu günlərdə akademik Fuad Əliyevin rəhbərliyi ilə AMEA Gəncə bölməsi əməkdaşlarının ərsəyə gətirdikləri "Mehriban Əliyeva: Humanizm və xeyriyyəçiliyin hamisi" kitabı çapdan çıxmışdır. Heydər Əliyev Fondunun yaradılmasının 20 illiyinə həsr olunan monoqrafiyada Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun ötən müddətdə həyata keçirdiyi layihələr xarakterizə olunmuşdur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərimizin dünyada təbliği, ölkəmizdə elm, təhsil, mədəniyyət, səhiyyə, ekologiya və bütövlükdə xalqın rifahı naminə bütün sahələrdə həyata keçirdiyi xeyirxah işlər öz əksini tapmışdır.**